Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

**5-ci istiqamət: Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**

# 1805-ci il Kürəkçay müqaviləsindən söhbət düşəndə hər dəfə Ermənistan liderlərinin "yuxusunu qaçıran" səbəblər...

**Dağlıq Qarabağ Azərbaycanın tarixi torpağıdır, müstəqil dövlətimizin ayrılmaz parçasıdır. Bütün tarixi mənbələrdə Qarabağ, onun aran, dağlıq bölgəsi də Azərbaycan xalqının ulu əcdadlarının məskəni kimi qeyd edilib. Qədim yunan, ərəb, fars və digər mənbələrdə bu torpaqların əzəli türk torpaqları olduğu, burada qədim türk dövlətlərinin mövcudluğu haqqında kifayət qədər məlumat, təkzibolunmaz faktlar əks olunub.**

Qərb dövlətlərinin dəstəyilə, Çar Rusiyası tərəfindən Gülüstan (1813) və Türkmənçay (1828) müqavilələrindən sonra Dağlıq Qarabağa və digər Azərbaycan torpaqlarına köçürülən və burada məskunlaşdırılan ermənilərin-hayların sonradan Dağlıq Qarabağa qarşı ərazi iddialarında bulunması ilə qarşılaşdıq.

### Prezident İlham Əliyev dəfələrlə Ermənistanın hərbi-siyasi rəhbərliyinə öldürücü zərbə vurub...

Ermənistanın hərbi-siyasi rəhbərliyi - həm düşmən ölkənin Prezidenti Armen Sarkisyan, həm Baş naziri Nikol Paşinyan, onlarla yanaşı, qondarma "DQR"in "prezident"i Araik Arutyunyan iddia edirlər ki, 1805-ci ildə Çar Rusiyası ilə Qarabağ hökmdarı İbrahim (İbrahimxəlil) xan arasında bağlanan Kürəkçay müqaviləsində ermənilərdən, onların taleyindən bəhs olunub (?).

Erməni "lider"lərinin tarixlə bağlı savadsızlığının, naşılığının, eyni zamanda da saxtakarlığının böyük nümunəsi olan bu əsassız iddialara Azərbaycan Prezidenti İlham Əliyev dəfələrlə öz məntiqli, tarixi faktlara söykənərək səsləndirdiyi əsaslı fikirlərilə öldürücü zərbələr vurub.

Prezident İlham Əliyev indiyə qədər bütün beynəlxalq platformalardakı çıxışlarında, yerli və xarici KİV-ə verdiyi müsahibələrdə Ermənistanın hərbi-siyasi rəhbərliyinin yalanlarını ifşa edib və ermənilərin Dağlıq Qarabağa nə zaman, kimin tərəfindən köçürüldüyünü, torpaqlarımızda məskunlaşdırıldığını açıqlayıb. "...Mən təəssüf edirəm ki, belə mühüm vəzifə tutan şəxs (Ermənistan Prezidenti - red.) yalanlar yayır. İnternetə baxın, XIX əsrin əvvəlində Azərbaycanın Qarabağ xanı ilə rus generalı arasında imzalanmış Kürəkçay sülh müqaviləsinə baxın. Orada erməni əhalisi haqqında heç bir şey deyilmir... Ermənilər bizim torpağımıza Rus-İran müharibələrindən sonra Rusiya imperiyası tərəfindən regionun dini tərkibini dəyişdirmək məqsədilə köçürülüb. Bu, tarixi faktdır. Ermənistan Prezidentinin dedikləri isə tamamilə feykdir.

İnternetə baxın, sənədlərə baxın. Siz kimin doğru danışdığını və kimin yalan danışdığını görəcəksiniz" - deyə bildirib.

### Kürəkçay müqaviləsində ermənilərdən bəhs edilibmi?

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Fəlsəfə və Sosiologiya İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Faiq Ələkbərli bizimlə söhbətində bildirdi ki, Prezident İlham Əliyevin dediyi kimi, Kürəkçay müqaviləsində ermənilər haqqında bir kəlmə də olsun yazılmayıb. Həmin dövrdə ermənilərin hələ İran və Türkiyə ərazisindən bizim torpaqlara köçürülmədiyini deyən F.Ələkbərlinin sözlərinə görə, Ermənistanın hərbi-siyasi rəhbərliyinin açıqladığı məlumatların feyk olduğunu dəfələrlə ölkə başçısı İlham Əliyev bütün dünya qarşısında ifşa edib, onların yalanlarını üzə çıxarıb. "...Birmənalı olaraq, Ermənistan Prezidenti Armen Sarkisyan tarixi saxtalaşdırır, özlərini bizim torpaqlara yamaq edir. Ona görə də cənab Prezident dedi ki, haylar-ermənilər XIX əsrin əvvəllərində Qafqaza, bizim torpaqlara gəliblər. Prezident tamamilə haqlıdır. Doğrudan da XVIII əsrin sonu, XIX əsrin əvvəllərində Rusiya və Qacarlar (İran) arasında müharibə baş verdi. 1813-cü ildə bağlanan Gülüstan, 1828-ci ildə imzalanan Türkmənçay müqaviləsindən sonra hayların Cənubi Qafqaza yerləşdirilməsi prosesi baş verib. O dövrdə Şimali Azərbaycanda, bildiyimiz kimi, Azərbaycan xanlıqları, sultanlıqları - Qarabağ, Gəncə, İrəvan, Şəki, Quba, Bakı, Naxçıvan xanlıqları, Qazax, Şəmşədil, İlisu sultanlıqları vardı. Bizimlə qonşuluqda isə Kartli-Kaxetiya çarlığı mövcud olub, o dövrdə bu bölgədə hayların heç bir nişanəsi yox idi.

Cənab Prezidentin qeyd etdiyi Kürəkçay müqaviləsinə gəlincə, Kürəkçay müqaviləsi 1805-ci ildə Qarabağ xanlığı ilə (daha sonra isə Şəki xanlığı ilə) Çar Rusiyası arasında bağlanıb, burada haylar haqqında heç bir bənd, fikir yoxdur. Həmin müqavilənin bəndlərində də söhbət ancaq ondan gedir ki, Qarabağ xanlığı, sonra isə Şəki xanlığı müəyyən şərtlər daxilində Çar Rusiyasının himayədarlığını qəbul edirlər. Orada müəyyən şərtlər var ki, bunun müqabilində də Çar Rusiyası Qarabağ xanlığını qorumalı, kənar qüvvələrdən müdafiə etməli, eyni zamanda da Qarabağ xanlığının idarəçiliyi nəsildən-nəslə ötürülməli idi. Yəni müqavilədə bu kimi məsələlər vardı. Ölkə başçısı düzgün vurğuladı ki, Kürəkçay müqaviləsində olan bəndlərin heç birində haylardan söhbət getmir, burada onların adları belə çəkilmir" - deyə F.Ələkbərli qeyd etdi.

### "Kürəkçay müqaviləsi Qarabağın faciəli taleyinin başlanğıcını qoydu"

AMEA-nın Qafqazşünaslıq İnstitutunun ermənişünaslıq şöbəsinin müdiri, professor Qasım Hacıyev Kürəkçay müqaviləsi və Qarabağın sonrakı tarixi taleyindən söhbət açdı: "Rusiya Cənubi Qafqazda apardığı işğalçılıq siyasətinin nəticəsi olaraq Kartli Kaxetiya çarlığını, Borçalı, Qazax və Şəmşədil sultanlığı, Car-Balakəni, Gəncə xanlığını işğal etdi. Belə vəziyyətdə İran hökuməti Rusiyanın irəliləməsinin fakt olduğunu dərk edərək Sisianova rus ordusunu Azərbaycandan çıxarması üçün ultimatum verdi. Bu proses ultimatumun etirazla qarşılanması və bundan sonra İran hökumətinin Rusiyaya müharibə elan etməsi ilə nəticələndi. İran ordusunun Azərbaycan xanlıqlarına hücumu başlandı (1804-cü il). Bərabər olmayan qüvvələr nisbətində başlanan ilk döyüşdə rus ordusu itki verərək döyüşü dayandırdı. Sisianov İrəvan xanlığına doğru hərəkət edərək İrəvan qalasını mühasirəyə alsa da, onu tuta bilmədi, xeyli itki verərək geri çəkildi. Belə bir vəziyyətdə Sisianov siyasi manevr etməyə əl atdı. Öz qaniçənliyi ilə tanınan Sisianov mehriban bir tərzdə müraciət edərək İbrahimxəlil xanın mövqeyini dəqiqləşdirmək fikrinə düşdü. İbrahim xan və onun baş vəziri Molla Pənah Vaqifin İrandan fərqli olaraq Rusiyaya meylli olması Sisianovun xarici siyasət planına uyğun gəlirdi. Sisianova məlum olan bu siyasətlə - xanlıqlar arasındakı narazılıqlardan istifadə edərək manevr etməyin nəticəsini Şəmşədil hökmdarı və digərlərinin timsalında görmüşdü. İbrahim xanın (İbrahimxəlil) daha hansı səbəblərdən Sisianovun müraciətinə müsbət cavab verməsinin müxtəlif arqumentlərlə izah edilməsini də nəzərə alsaq, demək olar ki, Sisianovun hiylələri və həmin dövrdə Azərbaycan torpaqlarında mənəm-mənəmliyin və daha dəqiq desək, vətən, xalq mənafeyindən deyil, şəxsi mənafe və şəxsi münasibətlərə üstünlük verilməsinin nəticəsində Azərbaycan böyük bəlalara düçar oldu. Gəncə xanlığına divan tutuldu, Qarabağ xanlığı itaət etməyə məcbur edildi. 1805-ci ildə Qarabağ xanı ilə Rusiya imperatoru arasında bağlanan Kürəkçay müqaviləsi imzalandı. Müqaviləni Rusiyanın Qafqaz qoşunlarının baş komandanı Sisianov imzalamışdır. Müqavilə adlandırılmasına baxmayayraq, mahiyyətcə təslimçilik aktı olan Kürəkçay müqaviləsi Qarabağın faciəli taleyinin başlanğıcını qoydu. Belə ki, 200 illik müddətdə müstəqil Azərbaycan dövlətinin qurulmasına imkan verilmədi. 11 maddədən ibarət "Andlı öhdəlik" adlanan bu müqavilə ilə Qarabağ xanlığı Rusiya himayəsinə qəbul edildi".

### "Bu məlikliklər alban məlikləri idi və bunların da müqavilənin bağlanmasında iştirak etmələri heç bir rəsmi sənəd və faktla təsdiq edilmir"

Q.Hacıyev vurğuladı ki, Rusiya ilə Azərbaycanın münasibətlərinə dair mühüm sənədlərdən biri sayılan bu müqavilə təkcə Qarabağın deyil, bütünlükdə Azərbaycanın taleyində mühüm rol oynadı. Professor Hacıyevin sözlərinə görə, Qarabağın özünə gəldikdə isə, bu müqavilənin şərtlərinə görə, Qarabağ xanlığı Rus imperiyasının vassalı olur, Rusiya çarına görə digər xarici dövlətlərlə münasibət saxlamaq hüququndan məhrum olur, çar xəzinəsinə hər il 8 min çervon bac verməyi öhdəsinə götürürdü. "Bundan əlavə, Şuşa qalasında və xanlığın ərazisində Rusiya qoşununun yerləşdirilməsi barədə də razılıq verilirdi. Bunlarla yanaşı, çar qoşunları general-leytenantı rütbəsi verilmiş İbrahimxəlil xan birbaşa çar baş komandanına tabe idi. Eyni zamanda, Rusiya hökuməti də xanın və onun varislərinin daxili idarəetmə hüquqlarına toxunmayacağını öhdəsinə götürdü.

Kürəkçay müqaviləsi 17 ildən sonra, yəni 1822-ci ildən sonra Qarabağ xanlığının çar hökuməti tərəfindən ləğv edilməsi ilə rəsmi qüvvəsini itirmiş oldu.

Kürəkçay müqaviləsi tarixşünaslıqda obyektiv tarixi həllini tapmayıb. Hətta bu problemin lazımi şəkildə tədqiq edilməməsi uydurma erməni "tədqiqatlarının" yaranmasına səbəb olub. Onlar Rusiyanın Qarabağ xanı ilə bağladığı bu müqavilədə məliklərin rolunu şişirdərək, guya hansısa böyük qüvvəyə malik olan erməni məlikliklərinin müqavilənin bağlanmasında rolundan və iştirakından danışırlar. Hansı ki, bu məlikliklər alban məliklikləri idi və bunların da müqavilənin bağlanmasında iştirak etmələri heç bir rəsmi sənəd və faktla təsdiq edilmir. İkincisi, bu müqavilənin bundan əvvəlki şərhlərində isə Qarabağ xanının könüllü rəyinin Rusiya hökuməti tərəfindən nəzərə alınaraq, könüllülük əsasında rəsmiləşdirilməsi kimi qeyd edilirdi. Xanın yaranmış hərbi-siyasi şərait nəticəsində belə bir müqaviləyə qol çəkmək məcburiyyətində qalması məlum olub.

Gəncənin işğalına qədər və hətta İrəvan xanlığına hücum ərəfəsində İbrahim xana rəğbətlə, mehribanlıqla müraciət edən Sisianovun sonrakı hərəkətlərinin uyğun gəlməməsi Rusiyanın əyalət siyasətinin davamı və buna xidmət edən Sisianovun hiyləgər xarakteri idi. İbrahimxəlil xanı Rusiyanın əbədi müttəfiqi kimi qələmə verərək onu inandırması və Cavad xanla münasibətlərini kəskinləşdirərək birinin digərinə kömək etməsi əvəzinə bir-birindən uzaqlaşması və laqeydliyi əvvəl Gəncə xanlığının, onun ardınca isə Qarabağ xanlığının tarixi taleyinin acı sonluqla nəticələnməsinə gətirib çıxardı. Sisianovun hansı yolla olur-olsun qələbəsi nəinki Qarabağın taleyini həll etdi, hətta tarixin də saxtalaşdırılmasına səbəb oldu".

### "İbrahimxəlil xanın sonrakı taleyi göstərir ki, heç bir müqavilə, heç bir andlı öhdəlik onu düşmənin pəncəsindən xilas etmədi"

Q.Hacıyevin sözlərinə görə, Sovet dövrü tarixçilərinin bunu könüllü birləşmə adlandırmasına baxmayaraq, rus tarixçiləri bunu qəhrəmanlıq, qələbə, fəth adlandırırdılar. Q.Hacıyevin bildirdiyinə görə, P.Q.Butkov yazırdı ki, "bu qəhrəman qələbə polkovnik Karyagin, mayor Kotlyarovski və knyaz Sisianovun adı ilə bağlıdır". "Yeri gəlmişkən, Krasnodar şəhərində 1991-ci ildə mərkəzi tarix muzeyində təşkil edilmiş sərgidə "Rusiyanın Qafqazdakı hərbi qələbələri"ni əks etdirən tarixi nümunələr və kitabların nümayiş etdirilməsi bu deyilənləri bir daha sübut edir.

İbrahimxəlil xanın sonrakı taleyi göstərir ki, heç bir müqavilə, heç bir andlı öhdəlik onu düşmənin pəncəsindən xilas etmədi. 1805-ci il iyul ayının 2-də İbrahimxəlil xan ailəsi ilə birlikdə rus zabiti Lisaneviç tərəfindən qətlə yetirildi. Qarabağ salnamələrində İbrahimxəlil xanın öldürülməsinin səbəblərindən biri kimi əvvəlcədən - 1805-ci ildə Peterburqda hazırlanmış plana əsasən öldürüldüyü, digəri isə ermənilərin xan haqqında uydurma xəyanət haqqında xəbər verməsi nəticəsində baş verdiyi bildirilir. M.C.Qarabaği yazır ki, "1806-cı ilin yazında Qızılbaş qoşunu (çar mirzəsi Cavanşir Qarabaği qızılbaş deyərkən İran qoşununu nəzərdə tutur - Q.H.) Qarabağ torpağına yenidən hücuma keçməyə başladı. Onların qarşısını almaq üçün Qarabağda mayor Lisanoviçin yeger dəstəsindən başqa qoşun olmadığından və məhsul vaxtı gəlib çatdığından, İbrahim xan Qarabağ elləri ayaq altında qalmasın deyə, qızılbaşlarla xoşluqla rəftar etməyə başladı. Ermənilər bunu mayor Lisanoviçə xəyanət kimi başa saldılar. Buna görə də İbrahimxəlil xan qətlə yetirildi".

İbrahimxəlil xanı öldürdükdən sonra mayor Lisanoviçin hərbi rütbəsinin artırılması göstərir ki, burada hər iki amil əsas götürülə bilər.

Qarabağ xanının taleyinə bax ki, bir tərəfdən İran onu ruslara xidmətinə görə "hiyləgər, xəyanətkar" adlandırırsa, digər tərəfdən isə Rusiya onu bu xidmətlərinə görə "cəzalandırır", qətlə yetirir. Buradan İran və Rusiyanın müstəmləkəçilik siyasətinin iç üzü görünür" - deyə Q.Hacıyev vurğuladı.

*İradə SARIYEVA*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**